**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**NURLANA SABİR QIZI ƏLİYEVA**

# MƏHƏMMƏD TAĞI SİDQİ VƏ UŞAQ ƏDƏBİYYATI

5716.01– Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**NAXÇIVAN – 2013**

İş Naxçıvan Dövlət Universitetinin ”Azərbaycan ədəbiyyatı” kafedrasında yerinə yetirilmişdir.

**ELMİ RƏHBƏR:** AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, professor **İsa Əkbər oğlu Həbibbəyli**

**RƏSMİ OPPONENTLƏR:** Filologiya üzrə elmlər doktoru, professor **Kamran İmran oğlu Əliyev**

Filologiya üzrə fəlsəfə doktoru **Nigar Nurəddin qızı Sadıqzadə**

**APARICI TƏŞKİLAT:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Azərbaycan ədəbiyyatı tarixi” kafedrası**

Müdafiə “28__” __09____ **2013-**cü il tarixdə saat ___ Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

ÜNVAN: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi,
Əsas bina, Böyük Akt zalı

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “__” _________ **2013**-cü il tarixdə göndərilmişdir.

**FD. 02.121 DİSSERTASİYA ŞURASININ ELMİ KATİBİ:** **dos. İ.Z.Cəfərov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Azərbaycan ədəbi-ictimai fikrinin inkişafında böyük rolu olan Naxçıvan ədəbi mühitinin öyrənilməsi istiqamətində indiyə qədər bir sıra araşdırmalar aparılsa da, onun çağdaş prizmadan yenidən araşdırılmasına ehtiyac duyulur. Elmi müşahidələr göstərir ki, Naxçıvanda uşaq ədəbyyatı ilə bağlı bütövlükdə təsəvvür yaradacaq ardıcıl və sistemli tədqiqatların aparılması məqsədəuyğundur. Naxçıvan ədəbi mühitinin, xüsusilə də bu mühitə məxsus olan pedaqoq-yazarların Azərbaycan ədəbiyyatında yeri və rolu ilə bağlı obyektiv mülahizə və təhlillərə ehtiyacı vardır və bu məsələ hazırda öz həqiqi həllini gözləyir.

Naxçıvan ədəbi mühitinin pedaqoji-bədii istiqamətdə araşdırılması Azərbaycan ədəbiyyatı ilə bağlı bir sıra məsələlərin həlli üçün müəyyən imkanlar aça bilər. Həmin mühitdə yaranan əsərlərin bir sıra ədəbi-bədii örnəklərlə müqayisəli tədqiqi, onların özəlliklərinin araşdırılması bütöv bir ədəbi-bədii mənzərənin işıqlandırılmasına kömək baxımından əhəmiyyətlidir. Məsələlərə münasibət baxımından Məhəmməd Tağı Sidqinin yaradıcılığına çağdaş prizmadan hərtərəfli şəkildə yanaşmaq ehtiyacı hiss olunur.

Məlumdur ki, Azərbaycan ədəbiyyatının çox maraqlı, önəmli və aktual bir istiqaməti olan uşaq ədəbiyyatının tarixi, ümumiyyətlə, Azərbaycan ədəbiyyatının tarixi qədər qədim deyil. Araşdırmalar göstərir ki, bu ədəbiyyatın əsas örnəkləri, bəlkə də yazılı ədəbiyyatda özül örnəkləri XIX yüzillikdə meydana çıxmışdır. Sözsüz ki, uşaq ədəbiyyatına xas olan bir sıra nümunələr Naxçıvan ədəbi mühitində yaranmışdır. Bu anlamda, araşdırma bütünlükdə Azərbaycan uşaq ədəbiyyatının hərtərəfli aydınlaşdırılmasına müəyyən töhfələr verə bilər.

Məlumdur ki, uşaq ədəbiyyatı ümumi ədəbiyyatın çox mühüm tərkib hissəsidir. Cəmiyyətin inkişaf keyfiyyətləri uşaqların tərbiyə və bacarığından xeyli dərəcədə asılı olduğundan onların düzgün istiqamətdə yetişdirilməsi, milli-mənəvi keyfiyyətlərlə zənginləşdirilməsi işində ədəbiyyatın müstəsna əhəmiyyətini inkar etmək olmaz. Bu anlamda, uşaq ədəbiyyatına aid örnəklərin araşdırılıb üzə çıxarılması, onların ədəbi-bədii məziyyətlərinin, yeniliklərinin, özəlliklərinin müəyyənləşdirilməsi zəruridir.

Respublikamızın müstəqilliyi ictimai mühitdə əsaslı dəyişikliklər yaratdı. Bu prosesdə ədəbiyyatşünaslıq elminin və bütün zamanlarda aparıcı mövqedə olan bədii ədəbiyyatın, o cümlədən, Naxçıvanda yaşayıb yaratmış və yaşayıb yaradan sənətkarların öz rolu vardır. Məhəmməd Tağı Sidqinin ədəbi əsərlərinin araşdırılması da Naxçıvan ədəbi mühiti haqqında müəyyən qədər düzgün və dəqiq fikir söyləməyə imkan verir.

Məhəmməd Tağı Sidqinin yaradıcılığının tədqiqi, ədəbi mühitinin öyrənilməsi, Azərbaycan uşaq ədəbiyyatının formalaşması və inkişafında yeri və rolunun müəyyənləşdirilməsi Naxçıvan ədəbi mühitinin hərtərəfli araşdırılması və bu baxımdan ümumazərbaycan kontekstindən təhlillər mövzunun aktuallığını göstərir.

**Tədqiqatın obyekti**. Dissertasiyada əsas araşdırma obyekti Naxçıvan ədəbi mühiti ilə bağlı bir sıra ədəbi-bədii örnəklər – Məhəmməd Tağı Sidqinin yaradıcılığıdır. Araşdırma prosesində sözügedən sənətkarın əsərləri və onların mövzu dairəsi, ideya-sənətkarlıq məsələləri, janr-üslub xüsusiyyətləri, pedaqoji bədiilik və s. problemlərə də toxunulmuş, onun mətbuat haqqındakı fikirlərinə müəyyən qədər yer verilmiş, ədəbi əlaqələri, ziyalılara münasibəti müəyyənləşdirilmiş, bu məsələ ilə bağlı mülahizələri, epistolyar üslubun inkişafında rolu məsələləri işıqlandırılmışdır.

**Tədqiqatın predmeti** Məhəmməd Tağı Sidqinin əsərlərinin təhlili və Azərbaycan ədəbiyyatı tarixində, xüsusilə də uşaq ədəbiyyatında mövqeyi məsələsidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi Naxçıvan ədəbi mühiti ilıə bağlı Məhəmməd Tağı Sidqinin yaradıcılıq örnəklərini izləməklə onun səciyyəvi xüsusiyyətlərini, özəlliklərini müəyyənləşdirmək, inkişaf meyl və istiqamətini aydınlaşdırmaq, çağdaş ədəbiyyatşünaslıq tədqiqatları səviyyəsində izah etmək və elmi şərhini verməkdir.

Sözügedən yazarın əsərlərinin təhlili ilə Azərbaycan ədəbiyyatı tarixinin mühüm və maraqlı bir dövrü – XIX yüzilin sonu ilə bağlı ədəbi mənzərənin daha geniş və dəqiq şərhini vermək, ədəbiyyat tariximizi, onun müxtəlif üslub və üslub variantlarını araşdırmaq, sabit və fərqli ədəbi-bədii xüsusiyyətlərini üzə çıxarmaq araşdırmanın əsas məqsədlərindən biridir. Qeyd edilən məqsədə çatmaq üçün, ilk növbədə, aşağıdakı məsələlərin həlli tələb olunur:

- Məhəmməd Tağı Sidqinin həyat və yaradıcılığını araşdırmaq, tədqiq tarixini müəyyənləşdirmək;
- Məhəmməd Tağı Sidqinin aid olduğu ədəbi mühiti elmi-nəzəri təhlilə cəlb etmək, ziyalılara münasibətini müəyyənləşdirmək, yaradıcılıq əlaqələrini hərtərəfli şəkildə araşdırmaq;
- Məhəmməd Tağı Sidqinin yaradıcılığına elmi-nəzəri münasibət göstərmək;
- Məhəmməd Tağı Sidqinin uşaqlar üçün yazdığı əsərlərin mövzu dairəsini müəyyənləşdirmək;

- Uşaq ədəbiyyatı sahəsində Məhəmməd Tağı Sidqinin müraciət etdiyi ədəbi növ və janrları tədqiq etmək;

- Məhəmməd Tağı Sidqinin uşaqlar üçün əsərlərinin ideya-bədii xüsusiyyətlərini aydınlaşdırmaq, Azərbaycan uşaq ədəbiyyatı ilə bağlı yaradıcılıq xüsusiyyətlərini araşdırmaq;

- Azərbaycan uşaq ədəbiyyatında maarifçi lirikanın zənginləşməsində Məhəmməd Tağı Sidqinin iştirakını sistemli şəkildə araşdırmaq;

- Azərbaycanda tənqidi-realist baxımdan uşaq ədəbiyyatının formalaşmasında Məhəmməd Tağı Sidqinin mövqeyini aydınlaşdırmaq;

- Məhəmməd Tağı Sidqinin Cənubi Azərbaycanla bağlı əlaqələrini müəyyənləşdirmək;

- Azərbaycan milli məktəblərinin inkişafında Məhəmməd Tağı Sidqinin xüsusi roluna çağdaş prizmadan qiymət vermək;

- Azərbaycanda epistolyar üslubun zənginləşməsində Məhəmməd Tağı Sidqinin xidmətlərini sistematik olaraq üzə çıxarmaq;

- Məhəmməd Tağı Sidqinin mətbuat haqqında fikirlərini araşdırıb sistemləşdirmək, Şərq mətbuatının inkişafında Məhəmməd Tağı Sidqinin rolunu müəyyənləşdirmək və s.

**Tədqiqatın elmi yeniliyi**. Azərbaycan ədəbiyyatşünaslıq elmində ilk dəfə olaraq Məhəmməd Tağı Sidqi və uşaq ədəbiyyatı problemi sistemli və hərtərəfli şəkildə ədəbi-pedaqoji baxımdan və elmi-nəzəri istiqamətdə araşdırmaya cəlb edilir. Bu tədqiqatla ümumazərbaycan ədəbiyyatının inkişafında maraqlı bir ədəbi şəxsiyyət və materialın mövqeyi və rolu müəyyənləşdirilir, Naxçıvan ədəbi mühitinin əhəmiyyətli bir mərhələsinin inkişaf prosesi izlənir, epistolyar üslubun sosial-mədəni əlaqələrin genişlənməsində xüsusi rolu aşkarlanır, ədəbi mühitin xarakteri, ədəbi şəxsiyyətlərin yaradıcılıq əlaqələri haqqında fikir söylənilir, uşaq ədəbiyyatına gətirilən yeniliklər göstərilir, ədəbi-bədii təhlillər, elmi-nəzəri ümumiləşdirmələr aparılır, həmin mühitə məxsus özəlliklər Azərbaycan ədəbiyyatının qanunauyğunluğu kimi dəyərləndirilir.

Məhəmməd Tağı Sidqinin yaradıcılığı çağdaş ədəbiyyatşünaslıq tədqiqatları səviyyəsində araşdırılmışdır. Tədqiqat bu yaradıcılığa aid olan örnəklərin hərtərəfli, xüsusilə də pedaqoji-bədii istiqamətdə öyrənilməsi baxımından yenidir. Araşdırmada ilk dəfə sözügedən sənətkarın yaradıcılığına xas olan ideya istiqaməti, onun sənətkarlıq baxımından özəllikləri, mövzu dairəsi, növ-janr-üslub məziyyətləri, ədəbiyyatımıza, xüsusilə də Azərbaycan uşaq ədəbiyyatına gətirdiyi yeniliklər təhlil edilir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Məhəmməd Tağı Sidqinin simasında Naxçıvan ədəbi mühitinin araşdırılmasının müəyyən nəzəri və praktik əhəmiyyəti vardır. Ümumazərbaycan ədəbiyyatının mühüm bir qolu ilə - Naxçıvan ədəbi mühiti ilə bağlı araşdırmalar elmi-nəzəri ümumiləşdirmələrin əhatə dairəsinin genişləndirilməsi üçün əlverişli imkanlar yaradır. Hazırda ayrı-ayrı regionlarda yazılmış və yazılan ədəbi örnəklər üzərində nəzəri ümumiləşdirmələr aparılması Azərbaycan ədəbiyyatının müxtəlif mərhələlərini və özünəxas cəhətlərini öyrənmək baxımından zəruri və əhəmiyyətlidir. Bu, həm də ümumazərbaycan ədəbiyyatı fonunda Naxçıvan ədəbi mühitinin dərindən araşdırılması, onun ədəbi-bədii mahiyyətinin müəyyənləşdirilməsi üçün imkan yaradır. Dissertasiya bir tərəfdən də ona görə əhəmiyyətlidir ki, işdə irəli sürülən nəzəri müddəalar indiyə qədər əyalət ədəbiyyatına olan ögey münasibətin yeni və doğma münasibətlə əvəz olunmasına kömək edir. Bölgələrdə yaranan ədəbi-bədii örnəklər tarixi qədimlərə dayanan böyük və möhtəşəm ədəbiyyatımızın bir hissəsidir və onu tamamlayan, zənginləşdirən nümunələrdir. Bu anlamda, onlar araşdırmalardan kənarda qalmamalı, dərindən tədqiq olunmalı, tədqiqatlardan alınan nəticələrdən müxtəlif dərslik və dərs vəsaitlərində istifadə edilməlidir. Beləliklə, sözügedən məsələlərin həlli ədəbi-estetik, milli-ideoloji problemlərə çağdaş prizmadan baxış tələb edir ki, bu da bir sıra məqamların milli zəmində, Azərbaycançılıq ideologiyası baxımından işıqlandırılmasına imkan yaradır. Bu isə ümumtürk ideyalarının inkişafına layiqli bir töhfə olar.

Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan ədəbiyyatının hərtərəfli öyrənilməsi, ədəbi problemlərlə bağlı, XIX yüzil kimi maraqlı və mürəkkəb bir tarixi mərhələ ilə əlaqəli dərslik və dərs vəsaitlərinin hazırlanması prosesində araşdırmanın nəticələrindən istifadə oluna bilər. Janr və üslub problemləri ilə bağlı məsələlərin öyrənilməsində dissertasiyanın nəticələrindən faydalanmaq mümkündür. Tədqiqatın əsas müddəa və nəticələrindən ədəbiyyat tarixi, seçmə fənn, mətbuat tarixi, uşaq ədəbiyyatı fənlərinin tədrisində istifadə oluna bilər. Xüsusilə də ölkəşünaslıq məsələlərinin aydınlaşdırılmasında araşdırmanın nəticələrindən istifadə etmək mümkündür.

**Tədqiqatın metodları**. Dissertasiyada çağdaş ədəbiyyatşünaslıq tədqiqatları örnək götürülmüş, mövcud araşdırmalarda sınaqdan keçirilmiş metodlar əsas hesab olunmuşdur. Daha çox ənənəvi tədqiqat metodlarından – təsvir, təsviri-tutuşdurma, müqayisəli qarşılaşdırma, elmi-nəzəri ümumiləşdirmə, sistemli təhlil üsullarına müraciət edilmişdir. Araşdırma prosesin-

də Azərbaycan ədəbiyyatşünaslığının milli-demokratik yönlü tədqiq və təhlil prinsiplərinə istinad olunmuşdur.

**Tədqiqatın aprobasiyası**. Tədqiqat işinin mövzusu 6 yanvar 2001-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin Elmi Şurasında və Azərbaycan MEA-nın nəzdində fəaliyyət göstərən Ədəbiyyatşünaslıq üzrə Problem Şurasının 30 iyun 2011-ci il tarixli iclasında təsdiq edilmişdir. İş Naxçıvan Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın ümumi məzmunu məqalə və tezislər şəklində çap olunmuşdur. Mövzu ilə əlaqədar 11 məqalə nəşr edilmişdir. Dissertant mövzu ilə bağlı 2012-ci ildə keçirilmiş "Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransında" "XIX yüzilin sonu, XX yüzilin əvvəlində Azərbaycan uşaq poeziyası" adlı məruzə ilə çıxış etmiş, xarici ölkənin elmi məcmuəsində isə "История школы в Нахчыване и Мухаммед Таги Сидги"( Философский альманах. Современность: Мир мнений, Алматы, 2012, № 2, с. 204-208 ) adlı məqalə öz əksini tapmışdır.

**Tədqiqatın quruluşu**. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, obyekti, predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti göstərilmiş, metodları şərh edilmiş, aprobasiya və quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiyanın I fəsli **"Məhəmməd Tağı Sidqinin həyatı, mühiti və yaradıcılığı"** adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir. **"Naxçıvanda Məhəmməd Tağı Sidqiyə qədərki ədəbi mühit"** adlanan birinci yarımfəsildə XIX yüzilin sonu və XX yüzilin əvvəlində Azərbaycanda sosial-mədəni vəziyyətin əsas göstəricisi və mühüm keyfiyyəti olan maarifçilik ideyalarının yüksəlişi və əməli hərəkata çevrilməsi prosesində Naxçıvanda formalaşan sənətkarlar nəzərə çatdırılmışdır.

Sözügedən dövrdə həm Naxçıvanın özündə, həm də onun mühüm bir bölgəsi olan Ordubadda üslub və janrların bir çoxunda qələmini sınayan, məşhur Azərbaycan yazarlarının dəyərli əsərləri ilə müqayisə edilə biləcək səviyyədə maraqlı əsərlər yazan iyirmidən artıq sənətkar bu mühiti təmsil edərək xalqımıza məxsus olan ədəbiyyatın zənginləşməsinə, maarifçiliyin inkişafına yüksək səviyyədə kömək etmişlər.

Sənətkarı zaman və mühit yetirir. Sözsüz ki, sənətkarların parlama-

sında ədəbi mühitlərin böyük rolu vardır. Bu baxımdan, XIX yüzil Naxçıvan ədəbi mühiti də diqqətədəyərdir. "Məhz bu ədəbi mühit Azərbaycan ədəbiyyatına Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Məhəmmədağa Şahtaxtlı, Məhəmməd Tağı Sidqi, Əliqulu Qəmküsar, Məmməd Araz, Hüseyn İbrahimov və başqaları kimi görkəmli şəxsiyyətlər bəxş etmişdir"[1].

I fəslin **"Məhəmməd Tağı Sidqinin həyatı"** adlanan ikinci yarımfəslində çağdaş dövrümüzə qədər əldə olan materiallara əsasən Məhəmməd Tağı Sidqinin həyatının bir sıra mərhələləri işıqlandırılmışdır.

Məhəmməd Tağı Sidqi 8 dekabr 1903-cü ildə Qarabağlar kəndində vəfat etmişdir. Onun ölüm tarixi və səbəbi haqqında da mübahisəli fikirlər mövcuddur. Qaynaqların çoxunda onun 9 dekabr 1903-cü ildə vəfat etməsi göstərilir. Lakin bir sıra sənədlər bu tarixin 8 dekabr 1903-cü il olduğunu təsdiq edir. Ədibin vəfatından dörd gün sonra - 12 dekabr 1903-cü ildə məktəbin nəzarətçisi Ələkbər Süleymanov İrəvan Quberniyası Xalq Məktəbləri müdirliyinə yazdığı məktubda Məhəmməd Tağı Sidqinin ölüm tarixi olaraq 8 dekabr 1903-cü il qeyd olunmuşdur: "Siz həzrətlərinə çatdırmaq istəyirəm ki, mənim nəzarətimdə olan məktəbin müəllimi Məşədi Tağı Səfərov bu ilin dekabr ayının 8-də müsəlmanların "Oruc bayramı" günü Qarabağlar kəndində tanışının evində vaxtsız vəfat edib.

Bunları sizin nəzərinizə çatdıraraq Sizin tatar dilinin tədrisi işinə dair sərəncamınızı gözləyirəm" [2]

Bundan başqa, Məhəmməd Tağı Sidqinin həyat yoldaşı İsmət xanımın dövlət tərəfindən təqaüd iddiası ilə bağlı yazdığı ərizədə də Məhəmməd Tağı Sidqinin ölüm tarixi 8 dekabr 1903-cü il göstərilmişdir.

Məmməd Səid Ordubadi yazır: "Sidqi 1904-cü **il** (1903-cü il olmalıdır – N.Ə.) sənədə 47 yaşlarında ikən Naxçıvanın Qarabağlar kəndində qonaq olduğu vaxt nagəhani surətdə vəfat eləmişdir"[3]. Məhəmməd Tağı Sidqinin ölüm səbəbinin ürək xəstəliyi ilə bağlı olduğunu göstərən mənbələr vardır: "...Sidqi ürək xəstəliyinə tutulur. Tez-tez tutan ürək sancıları kəskinləşib 1903-cü ilin dekabrın 8-də qonaq dəvət olunduğu Qarabağlar kən-

---

[1] Həbibbəyli İ.Ə. Qiymətli mənbə, etibarlı bələdçi // Axundov A., Vəliyev S. Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, s. 3.

[2] Cəfərov F. Yorulmaz maarıf fədaisi // "Nuh yurdu" qəzeti, 30 sentyabr 2004, № 18 (83), s.5.

[3] Ordubadi M.S. Əsərləri, 8 cilddə, VIII c. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1967, s. 333.

dində vəfat etməsinə səbəb olur” [1].

Məhəmməd Tağı Sidqi haqqında geniş araşdırma aparan Əsgər Qədimov bu ölümü rus nümayəndələrinin əli ilə ədibin öz dostları tərəfindən zəhərlənməsi ilə bağlayır. Bəzi mənbələrdə Məhəmməd Tağı Sidqinin ermənilər tərəfindən zəhərlənməsi haqqında məlumatlar da vardır. Ədibin Bakı şəhərində yaşayan, lakin hərdən vətəni Ordubadı ziyarət edən bacısı nəvəsi Züleyxa xanımın 2004-cü ildə dediklərindən aşağıdakılar məlum olur: “Bu yaxınlarda oxuduğum məqalələrin birində yazmışdılar ki, dayım 1903-cü il dekabr ayının 9-da ürək xəstəliyindən Qarabağlar kəndində vəfat etmişdir. Amma əslində belə deyil. O, bu cür ölməyib. Onu zəhərləyib öldürüblər.

O vaxt Nehrəmdə yaşayan bir qrup erməni Sidqini “Qız məktəbi” açdığına görə təqib edən müsəlman icmasından istifadə edib. Həmin o müsəlmanlar Sidqinin bu işini bəyənmirdilər. Onu harada gördü nalayiq sözlərlə təhqir edir, ona hərbə-zorba gəlirdilər. Ermənilər də bundan istifadə edib Sidqini bir ziyafətdə zəhərləyib öldürüblər. Və bu cinayəti də müsəlmanların adına yazıblar” [2]. Bu fikir ailə üzvü tərəfindən və Məhəmməd Tağı Sidqinin bacısı Dostu xanımın sözlərinə əsaslanıb söylənildiyindən diqqəti çəkir. Lakin “Məhəmməd Tağı Sidqinin tərcümeyi-halı”nı yazan Məmmədəli Sidqi Səfərov (ədibin oğlu) onun ürək xəstəliyindən vəfat etdiyini göstərir: “...1904-cü il qış fəsli Naxçıvandan Şahbazağa və Mirağa Kəngərlinski ilə Əmirağanın yaşadığı Qarabağlar kəndinə qonaq getmiş və bir neçə gün orada qalıb, Ramazan bayramının günündə ürək xəstəliyindən Qarabağlar kəndində Əmirağanın evində vəfat etmişdir. Cənazəsi Naxçıvana gətirilmiş, Naxçıvan camaatı bazar-dükanı bağlayıb, Sidqini böyük təntənə ilə Naxçıvanda dəfn etmişlər” [3] .

Məhəmməd Tağı Sidqi yaşadığı zaman varlığı ilə, bu dünya ilə vidalaşandan sonra şərəfli adı ilə seçilən ziyalılarımızdandır.

Birinci fəslin üçüncü yarımfəslində “**Məhəmməd Tağı Sidqinin müasirləri”**ndən danışılır. Sözsüz ki, Azərbaycanın ayrı-ayrı bölgələrində ədəbi mühitlərin məhsulu olan özəlliklər, ənənəvi cəhətlər ümumi ədəbi mühit və fikrin formalaşmasında mühüm rol oynayır. “Milli ədəbiyyatın in-

---

[1] Cəfərov F. Yorulmaz maarıf fədaisi // “Nuh yurdu” qəzeti, 30 sentyabr 2004, № 18 (83), s.5.

[2] Yurdoğlu E. Sidqini ermənilər zəhərləyərək öldürüb// “Şərq qapısı” qəzeti 8 iyun, 2004-cü il, № 68, s.5.

[3] Sidqi M.T. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004, s. 272.

kişafında ədəbi mühitlərin rolunun əhəmiyyəti dənizləri əmələ gətirməkdə böyük çayların mövcud olmasının zəruriliyinə bərabərdir... Azərbaycanda maarifçilik hərəkatının, milli teatrın, elmin və mətbuatın inkişafında Naxçıvan mühitinin rolunu və yerini başqa hər hansı bir ədəbi-mədəni və elmi mühitlə müqayisə etmək mümkün deyildir" [1].

XIX yüzil Naxçıvan ədəbi mühitini formalaşdıran əsas təşkilat əvvəl Ordubadda, sonra Naxçıvan şəhərində fəaliyyət göstərən "Əncüməni-şüəra" ədəbi məclisidir. Deməli, Məhəmməd Tağı Sidqinin mühitini səciyyələndirən əsas qurum "Əncüməni-şüəra" ədəbi məclisidir. Məhəmməd Tağı Sidqinin "Əncüməni-şüəra" ədəbi məclisində birlikdə çalışdığı müasirləri aşağıdakılardır: Hacıağa Fəqir Ordubadi, Molla Hüseyn Bikəs, Möhtərəm Ordubadi, Molla Məhəmməd Ordubadi, Müznib, Kəblə Əliqulu, Əhməd ağa Şəmi, Usta Zeynal Nəqqaş, Salik Ordubadi, Məşədi Həsən Dəbbağ, Ağa Rəsul Əttar, Canı Ordubadi, Nadim Naxçıvani, Mirzə Mehdi Naxçıvani və b.

Əlbəttə, Sidqinin məktəbdarlıq sahəsində qazandığı uğurlarda tərəqqipərvər insanların dəstəyi məxsusi dəyərləndirilməlidir.

M.S.Ordubadi yazır: "O vaxtlar Ordubad şairlərindən Məhəmməd Tağı Sidqinin çayçı dükanı var idi. O, gənc vaxtından İran səyahətində bulunduğu, hətta Səbzivar şəhərində yaşadığından farsca, ərəbcə, türkcə savadlı idi. Bütün şairlər onun dükanına toplaşırdı. Məhəmməd Tağı Sidqi məktəbə müəllim təyin edildi" [2]. Deməli, məktəb açılanda Məhəmməd Tağı Sidqi çayçı dükanında işləyirdi. "Məktəbin dörd il davamından sonra Ordubadda şiddətli vəba xəstəliyi düşdü. Məktəbin müəssislərindən Hüseyn Soltan və Hüseyn İsmayılov ikisi də bir gündə öldülər. Bunlardan sonra Salman Əsgərov məktəbi yalnız bir il davam etdirə bildi. Sidqi maaşsız qaldı. Onu naxçıvanlılar çağırıb Naxçıvana apardılar"[3]. Göründüyü kimi, burada da məktəbin müəssisi kimi Məhəmməd Tağı Sidqinin adı çəkilmir. O, məktəblərin təsisatçısı deyildi, onları formalaşdıran, mənəvi cəhətdən yaşadan bir ziyalı kimi adı çəkilməyə, yaddaşlarda yaşamağa, tarixə adı düşməyə layiq ziyalılarımızdandır.

Məhəmməd Tağı Sidqi Naxçıvanın həm mürəkkəb, həm də maraqlı bir tarixi zamanında yaşamışdır. Ədibin müasirləri və dostları Azərbayca-

---

[1] Həbibbəyli İ.Ə. Qiymətli mənbə, etibarlı bələdçi / Axundov A., Vəliyev S. Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, s. 3.
[2] Axundov Y.İ. Məmməd Səid Ordubadi. Bakı: Sabah, 1997, s. 18-19.
[3] Yenə orada, s.19.

nın ədəbi, mədəni, ictimai-siyasi həyatında özünəxas yeri və rolu olan böyük şəxsiyyətlər olmuşlar. Məhəmməd Tağı Sidqinin onlarla dostu və müasiri vardır ki, onların adı Azərbaycanın mədəniyyət və ictimai-siyasi fikir tarixinin parlaq səhifələrinə düşmüşdür: Fəqir Ordubadi, Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Qurbanəli Şərifov, Əsəd ağa Kəngərli, Nəsrulla Şeyxov, Paşa ağa Sultanov, Nəsrulla Əmirov, Hüseyn Soltan Kəngərli, Hüseyn İsmayılov, Mirzə Cəlil Şürbi (Mirzəyev), Əli Səbri və b. Onlardan Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Eynəlibəy Sultanov, Əliqulu Qəmküsar, Məhəmməd ağa Şahtaxtlı, Qurbanəli Şərifov, Mirzə Cəlil Şürbi kimi onlarla ziyalının adını çəkmək olar.

I fəslin “”**Məhəmməd Tağı Sidqinin bədii yaradıcılığı”** adlı dördüncü yarımfəslində Məhəmməd Tağı Sidqinin ədəbi-bədii irsindən danışılır. Bu, lirik şeirlər, maarifçi nəzm və nəsr örnəkləri, mənzum hekayə və elmi xarakter daşıyan əsərlərdən ibarətdir. “Heykəli-insana bir nəzər”, “Puşkin”, “Kəblə Nəsir” onun mətbu əsərləridir. “Məsnəviyyatı-mədəniyyət”, “Həkimanə sözlər”, “Yüz il yatandan sonra” ictimai-siyasi, fəlsəfi-etik, elmi-pedaqoji baxımdan dəyərləndirilməyə layiq örnəklər kimi diqqəti çəkir. “Sidqi Ordubadda olduğu zaman hələ gənc yaşlarında ikən farsca bir çox qəsidələr, türkcə qəzəllər və sinəzənlər yazmışdır. İstanbuldan aldığı “Əxtər” qəzetəsinin idarəsinə fars dilində iki təbrik şeri yazmışdır. “Tərcüman” qəzetəsinin on illiyi münasibətilə bir təbrik şeri yazıb göndərmişdir.

Sidqi Naxçıvandakı fəaliyyəti dövründə “Heykəli-insanə bir nəzər” əsərini yazmışdır. Bundan başqa, “Kəblə Nəsir” mənzum əsərini, Puşkinin anadan olmasının 100-cü illiyi münasibətilə cəşni-məclisində oxuduğu nitqi və sairləri yazmışdır. Farsca yarımçıq qalmış “Məsnəviyyatı-mədəniyyə”ni yazmışdır”[1]. Oğlu Məhəmmədəili Sidqi Səfərovun qeydlərindən məlum olur ki, Məhəmməd Tağı Sidqi İran haqqında da bir neçə farsca mənzum əsərin müəllifidir. “Türkcə qəzəlləri, sinəzənləri və farsca qəsidələri Salman Mümtaza qalmışdır”[2]. Məhəmməd Tağı Sidqinin lirikası, əsasən qəzəllərdən ibarətdir. “Əncüməni-şüəra”nın üzvləri klassik poeziyanın əksər forma və janrlarına müraciət edir, Sədi, Hafiz, Xəyyam, Cami, Nəvai, Nizami, Füzuli kimi klassik Şərq şairlərinin əsərlərinə nəzirə və bənzətmələr yazırdılar. M.T.Sidqi də “Əncüməni-şüəra”nın üzvləri kimi yaradıcılığa aşiqanə-lirik qəzəllərlə başlamış, klassik Azərbaycan və Şərq şairlərinin

---

1 .Sidqi M.T. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, s.2004, 270.
2 Sidqi M.T. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004, s. 272.

ədəbi ənənələrini poeziyada davam etdirmişdir [1].

Doğrudur, Məhəmməd Tağı Sidqinin qəzəllərində klassik poeziyaya məxsus olan şikayət motivləri, eşq bəlası ilə bağlı kədər, canana müraciət və s. vardır. Lakin bu əsərlərdə təbiətin tərənnümü, vətən məhəbbəti əsas yer tutur. Şair qəzəllərində həm romantik, həm də realist üslubdan faydalanmış, məhəbbət mövzusunda yazdığı qəzəllərində romantizm güclü olsa da, vətən, xalq, millət problemi ilə bağlı qəzəllərində realist-maarifçi üslub aparıcıdır.

Dissertasiyanın II fəsli **"Məhəmməd Tağı Sidqinin uşaqlar üçün əsərlərinin ideya-bədii xüsusiyyətləri"** adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsil "**Məhəmməd Tağı Sidqinin uşaqlar üçün şeirləri"** adlanır. Bu baxımdan, Məhəmməd Tağı Sidqinin uşaq ədəbiyyatı örnəklərindən olan "Elmin şərafəti", "Məktəbdə", "Dərsə diqqət", "Nümuneyi-əxlaq", "Nəsihətnamə" və s. əsərləri maraqlıdır. Onun şeirlərində elmə, ədəb və tərbiyəyə, dərsə düzgün münasibət formalaşdırılır, uşaqları vaxtlarını boş keçirməməyə, ondan səmərəli istifadə edərək yazıb oxumaqla məşğul olmağa çağırır.

Məhəmməd Tağı Sidqinin uşaq ədəbiyyatına aid əsərlərində diqqəti çəkən məsələlərdən biri də onun başqa dillərə yüksək münasibətidir. Böyük pedaqoq və ədib çox dil öyrənməyin əhəmiyyətindən danışaraq bunun insanın ədəb və tərbiyəsinin artırılmasına müsbət təsirini göstərir.

Məhəmməd Tağı Sidqinin fikrincə, çox elm öyrənən, çox dil bilən həm bu dünyada, həm də o biri dünyada azad olar:

Sən də öyrən ki, əhli-hal olasan,
Bəlkə filcümlə ba hamal olasan.

Olasan niknam, azadə,
Həm bu dünyada, həm o dünyadə[2].

Məhəmməd Tağı Sidqinin nəzmlə yazılmış əsərlərindən biri də "Kəblə Nəsir"dir. Bu əsər epik növdə yazılmış mənzum hekayədir və həcminə görə digər nəzm əsərlərindən böyükdür. "Kəblə Nəsir" mənzum hekayəsi 1912-ci ildə ədibin oğlu Məmmədəli Sidqi Səfərov tərəfindən Bakıdakı "Elektrik" mətbəəsində kitab şəklində çap olunmuşdur. Bundan başqa, həmin əsər Bakıda "Bakı" qəzetinin mətbəəsində jurnalist Hüseyn Minasazov tərəfindən nəşr edilmişdir. Əsər 268 misradan ibarətdir və məsnəvi şək-

[1] Qədimov Ə. Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı. Bakı: Çaşıoğlu, 2004, s. 17.
[2] Sidqi M.T. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004, s. 21.

lində yazılmışdır. Burada İsfahanda Kəblə Nəsir adlı bir nəfərlə bağlı hadisələr təsvir olunur. Əsərdən çıxan nəticə budur ki, əgər Kəblə Nəsir cahil olmasaydı, başına bu hadisələr gəlməzdi. Ömrü elm ilə mənalı keçirmək lazımdır.

Beləliklə, Məhəmməd Tağı Sidqinin nəzm əsərləri təsdiq edir ki, XIX yüzilin sonu, XX yüzilin əvvəlində uşaq poeziyası maarifçi şerə daha çox yer verən ədəbi qaynaq kimi maraqlıdır.

II fəslin II yarımfəsli "**Məhəmməd Tağı Sidqinin uşaqlar üçün nəsr əsərləri nümunələri**" adlanır. M.T. Sidqinin yaradıcılığında uşaq ədəbiyyatı örnəkləri arasında hekayələri xüsusi yer tutur. Həmin hekayələr "Məktəb hekayətləri" adlanır. "Məktəb hekayətləri" silsiləsinə daxil olan hekayələr iki qrupa ayrılır:

1. Süjeti olmayan və ya zəif süjetli hekayələr.
2. Süjetli hekayələr.

Birinci qrupa aid olan hekayələri miniatür-hekayə adlandırmaq olar. Həmin əsərlərdəki fikirlər ya müəllifin, ya da hekayə qəhrəmanının – hər hansı bir məktəblinin dilindən verilir və həmin əsərlərdə nəsihət və tövsiyələr daha qabarıqdır. "Məktəb", "Elm", "Ədəb", "Ata və ana", "İki tərbiyə üsulu", "Məktəbə davam edən uşaq", "Məktəbə gec gələn uşaq", "Rübabə", "Övlad məhəbbəti" belə əsərlərdəndir.

Məhəmməd Tağı Sidqinin hekayələri uşaq ədəbiyyatı örnəkləri olsa da, onlarda elə fikirlər var ki, hamıya, hətta böyüklərə də aiddir. "Uşaqlar üçün ancaq o əsərlər yaxşı və faydalı sayıla bilər ki, o böyükləri də məşğul etsin və onların bir uşaq üçün deyil, hamı üçün yazılmış bir əsər kimi xoşuna gəlsin" [1].

Məhəmməd Tağı Sidqinin uşaq hekayələri bədii-pedaqoji xarakter daşıyır. Bu, bir tərəfdən uşaq ədəbiyyatının səciyyəvi xüsusiyyətlərindəndir, digər tərəfdən isə müəllifin ideyaları ilə bağlıdır. O yazdığı əsərləri təkcə yazıçı kimi deyil, həm də müəllim olaraq qələmə almışdır. Ona görə də həmin əsərlərdə öz işinin ustası olan bir müəllimin şagirdlərinə qayğısı, arzuları əsas yer tutur.

Məhəmməd Tağı Sidqinin hekayələri həcm baxımından kiçik olsa da, məna və tərbiyəvi əhəmiyyət baxımından böyükdür.

Məhəmməd Tağı Sidqinin "Hekayətlər" adı ilə tanınan və yeddi miniatür nəsrdən ibarət əsərləri də var. Onlar "Qapıya gələni ümidsiz qaytarma", "Dostların evini süpür, düşmənlərin qapısını döymə", "Allahı yad-

---

[1] Babayev B.M. Ədəbi söz qalacaq. Bakı: Elm, 2006, s.15.

dan çıxartma", "Yatan ölməz, yetən ölər" və s. atalar sözlərini hikmətindən doğan nəticə xarakterli fikirlərlə zəngindir.

Üçüncü yarımfəsil **"Məhəmməd Tağı Sidqinin uşaqlar üçün əsərlərinin sənətkarlıq xüsusiyyətləri"** adlanır.

Məhəmməd Tağı Sidqinin yaradıcılığında bir sıra cəhətlər diqqəti çəkir. Məsələn, sənətkarlığın birinci şərtlərindən olan əsərin həyat həqiqətləri ilə düz gəlməsi, demək olar ki, onun bütün əsərlərinə aiddir. Bütün əsərlərinin mövzusunu reallıqlardan alan ədib həyat materiallarını obrazlı və bədii formaya salmaq üçün müxtəlif vasitələrdən istifadə etmişdir.

Məhəmməd Tağı Sidqinin uşaq ədəbiyyatına aid yazdığı bütün nümunələrində bədiiliyin əsas əlamətlərindən olan sadəliyə rast gəlirik. Aydın və təmkinli dil surətlərin gerçəkliklə əlaqəsini tamamilə əks etdirə bilir. Onun elə nəsr əsərləri vardır ki, onlarda süjet tapmaq çətindir. Bu əsərlərdə cəlbedici süjet qurmaqdan daha çox diqqətçəkici ideyalara fikir verilmişdir.

Məhəmməd Tağı Sidqinin sənətkarlıq xüsusiyyətlərindən biri də hadisələri asanlıqla əlaqələndirmə, ümumiləşdirmə və tipikləşdirməyi bacarmaqdadır. O, əsərlərində qoyduğu əsas, mərkəzi məsələni konkret şəkildə irəli sürür, canlı obrazlar yaradır və mücərrədliyə yer vermir. Təbiidir ki, uşaq ədəbiyyatı örnəklərində konkretlik, faktik materiallar əsas məsələlərdən biridir. Bu məsələ uşaq əsərlərinin inandırıcılığını təmin edən əlamətlərdən biridir.

Məhəmməd Tağı Sidqinin uşaq ədəbiyyatı yaradıcılığında onun ədəbi-bədii, poetik istedadı ilə müəllimlik mədəniyyəti birləşib. Dərin müşahidələr nəticəsində qələmə alınan bu əsərlərdə uşaqları yoran mövzu və məsələlər yoxdur, zəruri təfərrüatlar, konkret, yaddaqalan həyat materialları var. Orijinallıq və səmimiyyət, ideya-fikir aydınlığı, bədii əsərə məzmun verən həyat həqiqətləri, mətləb, məqsəd haqqında tam təsəvvür yaratmaq məsələlərində müəllifin öz yolu, öz səsi və öz üslubu var. Doğrudur, axıcılıq və ahəngdarlıq bədii əsərlərin, xüsusilə də nəzmlə yazılan əsərlərin əsas keyfiyyət xarakterlərindən hesab edilir. Lakin bu, bir həqiqətdir ki, Məhəmməd Tağı Sidqinin uşaq ədəbiyyatı örnəklərində axıcılıq və ahəngdarlıqdan çox fikir və məqsəd var. Bunun özü həyata baxış deməkdir.

Məhəmməd Tağı Sidqinin canlı obrazlarla dolu hekayələrində heç bir uyğunsuz söz və ifadə, hər hansı bir mətləbin uzadılması yoxdur. Bu əsərlərdə məntiqsiz fikirlə qarşılaşmaq mümkün deyil.

Məhəmməd Tağı Sidqi uşaqlar nəyi və necə görməlidirsə, onu yazır. Sözsüz ki, sənətkarın hər hansı bir obyektə yanaşması, qələmə aldıqları və onları necə ifadə etməsi onun üslub xüsusiyyətləri ilə bağlıdır. Hər bir yazı-

çının həyata hansı meyar, tələb və ideallarla yanaşması onun dünyagörüşünü müəyyənləşdirir və üslub keyfiyyətlərini üzə çıxarır.

Məlumdur ki, hekayə müasirliyi və fəallığı ilə seçilən janrdır və onun əsas və sürətli inkişafı XX əsrin əvvəli ilə bağlıdır. Həcm baxımından kiçik olsa da, hekayənin imkanları böyükdür. Bu anlamda, Məhəmməd Tağı Sidqinin hekayələri kütləvidir və uşaq şüuruna asanlıqla yol tapır. Onun hekayələri daha kiçikdir. Lakin bu, həmin əsərlərin təsir və əhəmiyyətini azaltmır, onların asan anlaşılmasını təmin edir. Yığcam yazmağın özü çətindir. Kiçikhəcmli əsərlər müəllifin tipikləşdirmə və ümumiləşdirmə bacarığını daha tez və mükəmməl əks etdirə bilir.

Məhəmməd Tağı Sidqi əsərlərində bəzən maraqlı qarşılaşdırma və müqayisələrdən istifadə ilə fikirlərini daha dərindən ifadə etməyə nail olmuşdur. Bu mənada, onun "Hekayəti-mənzunə" əsəri çox maraqlıdır. Burada müəllif vətəni qorumaqda, torpağı əziz tutmaqda insanı qarışqalardan ibrət almağa çağırır, onlardakı birliyi, mübarizə əzmini təqdir edir.

Məhəmməd Tağı Sidqinin yaratdığı sadə uşaq və məktəbli obrazları (Sitarə, Rübabə, Ruqiyyə və b.) uşaq ədəbiyyatının maraqlı qəhrəmanlarındandır və onlar təqdimetmə üsulu ilə yadda qalan surətlərdir. Onların müəllifi özünə xas sənətkarlıq keyfiyyətlərinə malikdir.

İkinci fəslin "**Məhəmməd Tağı Sidqinin elmi-pedaqoji əsərləri**" adlanan dördüncü yarımfəslində qeyd olunur ki, Məhəmməd Tağı Sidqinin yaradıcılığının bir qismi elmi əsərlərdən ibarət örnəklərdir. O, şair, nasir, pedaqoq olmaqdan başqa, həm də dövrünün alimi kimi tanınmışdır. "Puşkin", "Heykəli-insana bir nəzər", "Müxtəsər coğrafiya risaləsi" əsərləri elmi yaradıcılığına aid olan örnəklərdir.

"Puşkin" əsərində Azərbaycan ziyalılarının digər xalqların ədəbi simalarına, ədəbiyyatına münasibətini ifadə edən Məhəmməd Tağı Sidqi söz haqqındakı fikirlərini də vermişdir.

Məhəmməd Tağı Sidqinin elmi yaradıcılığını səciyyələndirən əsərlərdən biri də "Heykəli-insana bir nəzər"dir. Əsərdə insanın yaradıldığı dövrdən çağdaş zamana qədərki böyük bir tarixi proses elmi-fəlsəfi baxımdan işıqlandırılır. Məhəmməd Tağı Sidqinin "Heykəli-insana bir nəzər" əsərini insan haqqında elm adlandırmaq olar.

"Heykəli-insana bir nəzər" əsəri həm insanın fiziologiya və anatomiyası, həm tarix, həm fəlsəfə, həm də psixologiya elmləri əsasında yazılmış maraqlı bir məqalədir. Bu əsər 1912-ci ildə Bakıda "Kaspi" mətbəəsində kitab kimi çap olunmuşdur.

Məhəmməd Tağı Sidqinin elmi fikirlərinin bir hissəsi "Coğrafiya

xüsusunda məlumatı-mücmələ" ("Coğrafiya haqqında qısa məlumat") əsərində verilmişdir. Məhəmməd Tağı Sidqinin həmin dərsliyi Azərbaycanda coğrafiya elmi sahəsində ilk dərslik deyildir. Çünki əldə olan məlumatlara görə, Azərbaycanda coğrafiya haqqında ilk dərsliyin müəllifi Abbasqulu ağa Bakıxanovdur. O, həmin elmə aid "Coğrafiya" adlı dərsliyin də müəllifidir. Lakin Naxçıvanda ilk dəfə bu mövzuda dərslik müəllifi kimi Məhəmməd Tağı Sidqi böyük rol oynamışdır. Belə ki, onun dərsliklərindən tədris prosesində əsas vəsait kimi istifadə edilmişdir.

"Coğrafiya xüsusunda məlumatı-mücmələ" əsəri elmi-nəzəri xarakter daşıyır. Həmin əsərin məzmunundan məlum olur ki, oradakı bir sıra terminlərin müəllifi də Məhəmməd Tağı Sidqidir. Naxçıvanda ilk meteoroloji stansiyanın əsasının Məhəmməd Tağı Sidqi tərəfindən qoyulması məlumdur. Həmin stansiyanın nəinki Azərbaycan, hətta Rusiya ərazisində ilk stansiyalardan olması haqqında qaynaqlarda məlumatlar vardır. Məhəmməd Tağı Sidqinin rəhbərliyi ilə stansiya onun şagirdləri tərəfindən idarə olunurmuş. "Naxçıvanda meteoroloji stansiyanın yaradılması ilə M.T. Sidqi Azərbaycanda tibbi coğrafiya baxımından ilk əməli işlərin də əsasını qoymuşdur"[1]. Məhəmməd Tağı Sidqinin coğrafi, tibbi fikirləri indi də dəyərlidir.

"Nümuneyi-əxlaq", "Töhfeyi-benat, yainki qızlara hədiyyə", "Nəsihətnamə", "Əzbər ediləcək hikmətli sözlər" ədibin pedaqoji əsərlərinə aiddir.

"Nümuneyi-əxlaq" dərslik kimi tərtib edilmiş, imla mətnləri kimi tərtib edilmiş və qırx mətndən ibarətdir. Bu mətnlərin hər birində şagirdlərin təlim-tərbiyəsinə kömək edəcək xüsusiyyətlər təbliğ edilir, onların əsl vətəndaş kimi böyümələri üçün lazım olacaq keyfiyyətlərdən danışılır. "Nümuneyi-əxlaq"a daxil olan mətnlərdə dərslərə davamiyyət, səylə çalışmaq, zəkalılıq, zirəklik, diqqətlilik, çalışqanlıq, ədəb, tərbiyə, düzgünlük, təmkinlilik, səliqə, səxavət, gülərüzlülük, ürək açıqlığı, böyüklərə ehtiram və s. xüsusiyyətlərin vacib olduğu, tənbəllik, dərslərə gecikmək, zəkasızlıq, diqqətsizlik, özündən razılıq və s. cəhətlərdən isə uzaq olmağın zəruriliyi əsaslandırılır.

"Töhfeyi-benat, yainki qızlara hədiyyə" əsəri də dərslik kimi tərtib edilmişdir. Həmin dərslikdə on üç mətn verilmişdir ki, həmin mətnlərdə də qızların mükəmməl və elmli şəxsiyyətlər kimi yetişməsində böyük rol oy-

---

[1] Əliyeva Ş. M.T.Sidqinin coğrafi fikirləri // "Naxçıvan" (ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal). Naxçıvan: Əcəmi, 2004, №12, s. 5.

nayan xüsusiyyətlərin təbliği əsas yer tutur. Səksən nəsihətin toplandığı "Nəsihətnamə" əsəri də elmi-pedaqoji baxımdan çox dəyərlidir. Bu əsərdə müəllif insanı zəhmətsevərlikdə qarışqadan ibrət almağa çağırır, "Nəsihətnamə"də tibbi fikirlər də müəyyən qədər yer tutur. Burada sirr saxlamağı bacarmaq, nəsihətə qulaq asmaq, tamahkarlıqdan uzaq olmaq, elm və əxlaqı mükəmməlləşdirmək, inadcıllıqdan uzaq olmaq, təbiətin qayğısına qalmaq, nəfsi islah etmək və s. xüsusiyyətlər tərbiyə olunur. Əsərdə uşaq və gənclər, hətta böyüklər üçün gərəkli fikir və nəsihətlər verilmişdir.

"Əzbər ediləcək hikmətli sözlər" toplusunda qırx hikmətli fikir vardır ki, pedaqoji prosesi onlarsız təsəvvür etmək olmaz. Əslində, onları da nəsihətnamə hesab etmək olar.

Beləliklə, Məhəmməd Tağı Sidqi yalnız ədiblik və müəllimliklə kifayətlənməmiş, şagirdləri üçün dərsliklər də tərtib etmişdir ki, həmin dərsliklər ədibin bədii-pedaqoji əsərlər külliyyatıdır.

Dissertasiyanın üçüncü fəsli **"Azərbaycan uşaq ədəbiyyatının inkişafında Məhəmməd Tağı Sidqinin rolu"** adlanır. Bu fəsil də dörd yarımfəsildən ibarətdir. I yarımfəsil **"Azərbaycan uşaq ədəbiyyatının formalaşması və inkişafında Məhəmməd Tağı Sidqi mərhələsi"** adlanır. Məhəmməd Tağı Sidqi Azərbaycanda cəmiyyətin demokratikləşməsi, ümummilli inkişafın formalaşması dövründə ədəbiyyat aləminə gəlmiş və uşaq ədəbiyyatının yaddaqalan örnəklərini yaratmışdır. Onun bu sahədəki fəaliyyəti ayrıca bir mərhələ təşkil edir. "M.T.Sidqi uşaq ədəbiyyatının müxtəlif janrlarında maraqlı bədii əsərlər yazmışdır. Maarifçi şeir, poetik öyüdnamə, mənzum hekayət və didaktik hekayələr onun uşaq əsərlərinin əsasını təşkil edir. Sənətkarın uşaqlar üçün yazdığı şeirlər, əsasən, tərbiyəvi məzmunda olan öyüdnamələrdən ibarətdir"[1]. Akademik İ.Həbibbəyli bu öyüdnamə və nəsihətləri S.Ə.Şirvaninin maarifçi-poetik ənənəsinin davamı hesab etmiş, Məhəmməd Tağı Sidqini həm də "milli uşaq nəsrinin ilk kamil nümunələrinin yaradıcısı" kimi qiymətləndirmişdir. Doğrudan da, valideyn-övlad münasibəti ("Ata və ana məhəbbəti"), elm öyrənməyin fəziləti ("İki bacının söhbəti"), uşaqlarda hərtərəfli inkişafın (elm, səliqə, əməksevərlik, vətənpərvərlik, böyüklərə hörmət, kiçiklərə ehtiram vəs.) zəruriliyi ("Rübabə"), mənəvi zənginlik, qayğıkeşlik ("Analar bəzəyi"), valideynlərə məhəbbət ("Ruqiyyənin söhbəti"), səxavət ("Nəfsi səlamət uşağın hekayə-

[1] Həbibbəyli İ. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti // Məhəmməd Tağı Sidqi. Əsərləri. Bakı: Çaşıoğlu, 2004, s.18.

si”) kimi müsbət xüsusiyyətlər Məhəmməd Tağı Sidqi tərəfindən uşaq ədəbiyyatının əsas mövzu və ideyaları kimi irəli sürülmüşdür.

Məhəmməd Tağı Sidqinin şeirləri içərisində “Yüz il yatandan sonra” əsəri cəmiyyətdəki inkişaf və yeniliklərin alqışlanması və qiymətləndirilməsinə həsr olunmuşdur. Əsərin qəhrəmanı Bayram əminin dilindən verilən insan əməlləri əsrin yeniliyi kimi diqqəti çəkir. Bu əməllərdən insanın su altından tellər çəkməsi, yollar açması, dağları, daşları yarması, gəmilərdə gəzməsi və s. sadalanır. Müəllif demək istəyir ki, əsrin nəbzini tutmaq, “işini tapmaq” lazımdır, digər xalqlardan geri qalmamalıyıq.

Ədibin ən ciddi və hətta siyasi mövqeli əsərlərində də birinci yerdə maarifçilik ideyaları dayanır. Bu baxımdan, “Məsnəviyyatı-mədəniyyə” (“Mədəniyyət məsnəvisi”) əsəri səciyyəvidir. Uşaq ədəbiyyatı örnəklərində sadə şəkildə özünü göstərən ideyalar – elm öyrənmək, dostluq, birlik və s. “Məsnəviyyatı-mədəniyyə” əsərində elmi-publisistik və nəzəri baxımdan əsaslandırılmışdır. Bu anlamda, müəllif fəlsəfə (hikmət) və iqtisadiyyat (sərvət) elmlərinə üstünlük vermişdir. Məhəmməd Tağı Sidqi uşaq ədəbiyyatına mövzu yenilik və zənginliyindən başqa, forma fərqliliyi ilə də seçilən əsərlər yaratmışdır. Məsələn, “Kəblə Nəsir” mənzum hekayəsi Azərbaycanda “dərs-hekayət” formasında yazılmış ilk uşaq ədəbiyyatı nümunəsidir” [1].

III fəslin ikinci yarımfəsli **“Məhəmməd Tağı Sidqinin əsərlərinin nəşri məsələləri”** adlanır. Məhəmməd Tağı Sidqinin əsərlərinin bir hissəsi – publisistik yazıları onun sağlığında nəşr edilmişdir. Belə ki, bir sıra mətbuat orqanlarında – “Şərqi-Rus”, “Tərcüman” qəzetlərinə tez-tez yazılar göndərmiş, hətta xarici mətbuatla da əlaqələr yaratmışdır. Bu haqda ədibin oğlu Məhəmmədəli Sidqi Səfərovun yazdığı tərcümeyi-halda müəyyən qədər məlumat vardır: “Kəlküttədə (Hindistanda) çıxan “Həblülmətin” qəzetəsinə (10-11-ci il nəşrlərinə) bir neçə məqalə yazmış, “Tərcüman” qəzetində dəxi yazılarla çıxış etmişdir. Misirdən aldığı “Əl-hilal” (ərəb dilində, naşiri Cürci-Zeydan), Mirzəli Məhəmməd xan Kaşaninin nəşr etdirdiyi ”Sürəyya”, “Pərvəriş” qəzetələri ilə əlaqə saxlamışdır”[1]. Bundan başqa, o, “Əxtər” və “Ədəb” qəzetlərində də publisistik yazılar çap etdirmişdir. Həmin mətbuat orqanlarında Məhəmməd Tağı Sidqinin “Cəhalət”, “Göz yaşı”,

[1] Həbibbəyli İ. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti // Məhəmməd Tağı Sidqi. Əsərləri. Bakı: Çaşıoğlu, 2004, s.18.

“Təşəkkür və itminan”, “Məzlum xalqın maarifi”, “Yüz il yatandan sonra”, “Səd heyf” adlı əsərləri çap olunmuşdur.

Araşdırmalar göstərir ki, Məhəmməd Tağı Sidqinin publisistik əsərlərinin nəşri tarixi bədii əsərlərinin nəşri tarixindən əvvəldir. Onun XIX əsrin sonunda “Üsuli-cədid” məktəbləri mövzusunda yazdığı məktub “Tərcüman” qəzetində çap olunmuşdur. Sağlığında Məhəmməd Tağı Sidqinin bədii-mənzum əsərləri də nəşr edilmişdir. Bu baxımdan, onun fars dilində qələmə aldığı “Hekayəti-mənzum” əsərini göstərmək olar. Bu əsər “Nasiri” qəzetində işıq üzü görmüşdür.

XX əsrin onuncu illərində Məhəmməd Tağı Sidqinin iki əsəri çap edilmişdir. Ölümündən sonra birinci çap olunan əsəri “Heykəli-insanə bir nəzər” adlı elmi əsəridir. 1912-ci ildə onun “Heykəli-insanə bir nəzər” adlı əsəri Bakıdakı “Kaspi” mətbəəsində kitab kimi buraxılmışdır. Ədibin oğlu Məhəmmədəli Sidqi Səfərovun yazdığına görə, bu əsər ilk dəfə Təbrizdə daş çapı ilə nəşr edilmişdir. Bundan sonra, həmin əsər 1912-ci ildə Bakıdakı “Kaspi” mətbəəsində kitab kimi buraxılmışdır. Məlumatlara görə, “Heykəli- insanə bir nəzər” əsərinin işıq üzü görməsində məşhur aktyor Mirzağa Əliyevin böyük rolu olmuş, əsər onun tərəfindən nəşr edilimişdir.

Məhəmməd Tağı Sidqinin “Əsərləri”ndə “Kəblə Nəsir” mənzum hekayəsinin sonundakı qeyddə əsərin Məhəmmədəli Sidqi Səfərov tərəfindən 1912-ci ildə çap edildiyi göstərilir. Lakin Məhəmmədəli Sidqi Səfərovun “Tərcümeyi-hal”ında həmin əsərin Bakıda “Bakı” qəzetinin mətbəəsində jurnalist Hüseyn Minasazov tərəfindən nəşr edilməsi bildirilir.

İki il sonra – 1914-cü ildə Məhəmməd Tağı Sidqinin “Puşkin” əsəri (A.S.Puşkinin 100 illik yubileyidə söylədiyi nitqin məzmunu) oğlu Məhəmmədəli Sidqi Səfərov tərəfindən İsabəy Aşurbəylinin “Kaspi” mətbəəsində çap olunmuşdur.

Nəhayət, uzunmüddətli bir fasilədən sonra Məhəmməd Tağı Sidqinin irsinə xüsusi maraq göstərən akad. İ.Həbibbəyli Respublika Əlyazmaları İnstitutunda araşdırmalar apararaq onun əsərləri içərisində uşaq ədəbiyyatı ilə bağlı bir sıra örnəkləri “Məktəb hekayələri” adı ilə tərtib etmiş, ön sözü ilə 1996-cı ildə Bakıda “Sabah” nəşriyyatında dərc etdirmişdir. Kitabda Məhəmməd Tağı Sidqinin, əsasən elm və məktəb mövzusunda yazdığı kiçik hekayə xarakterli yazıları və “Heykəli-insanə bir nəzər” adlı elmi əsəri çap edilmişdir.

11 mart 2004-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasifin Talıbov “Görkəmli pedaqoq, maarifçi və şair M.T.Sidqinin 150 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haq-

qında” sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn vəzifələrlə bağlı olaraq Məhəmməd Tağı Sidqinin irsi bir daha araşdırılmış və yeni nəşrləri başlanmışdır. Həmin ildə onun “Əsərləri” akad. İ.Ə.Həbibbəylinin tərtibatı və ön sözü ilə “Çaşıoğlu” nəşriyyatında işıq üzü görmüşdür. Bu, əvvəlki nəşrlərlə müqayisədə xeyli zəngin və maraqlıdır. Belə ki, həmin kitabda müəllifin çoxsaylı əsərləri toplanmışdır.

III fəslin üçüncü yarımfəsli **“Məhəmməd Tağı Sidqinin uşaq əsərlərinin təsir dairəsi”** adlanır.

Məhəmməd Tağı Sidqinin əsərləri hələ sağlığında geniş yayılmışdı. Onun işlədiyi məktəblərdə dərs prosesində əsərlərindən istifadə edilir, hətta dərs başlanmamışdan əvvəl onların bəzi örnəkləri şərqi kimi oxunurdu.

Məhəmməd Tağı Sidqinin uşaq əsərlərinin mövzu dairəsi geniş olmuş, həmin mövzularda Azərbaycan uşaq ədəbiyyatında bir sıra maraqlı əsərlər qələmə alınmışdır. Uşaq ədəbiyyatı örnəkləri içərisində elə mövzular vardır ki, onlar məzmun yaxınlığı ilə diqqəti çəkir. Məsələn, Məhəmməd Tağı Sidqinin məktəb mövzusunda yazdığı əsərlərlə Rəşid bəy Əfəndiyevin həmin mövzudakı əsərləri məzmunca bir-birinə bənzəyir.

Beləliklə, Məhəmməd Tağı Sidqinin əsərləri zamanında uşaq ədəbiyyatında ideya-bədii xüsusiyyətlərin inkişafına, əsərlərin mövzu dairəsinin genişlənməsinə, bu baxımdan, bir sıra əsərlərin meydana çıxmasına səbəb olmuşdur.

Üçüncü fəslin dördüncü yarımfəsli **“Məhəmməd Tağı Sidqi və mətbuat”** adlanır. “İndiki əsrimizdə bu hamı təməddünat və tərəqqiyyatın ümdə vasitəsi və ülum və maarifin və vüquati-əfkarın əvvəlinci rəhbəri qəzetədir”- deyən Məhəmməd Tağı Sidqi mətbuata yüksək münasibət göstərən yazıçılardandır. Azərbaycanın bir sıra ziyalıları mətbuat haqqında qiymətli fikirlər söyləmiş, onun insan həyatındakı rolunu dəyərləndirmişlər. Nəriman Nərimanov mətbuatı qüvvətdə dövlətə bənzətmiş, Cavad Heyət onu güzgü ilə müqayisə etmişdir: “Mətbuat cəmiyyətin güzgüsüdür. Bu güzgüdə münəks olunan naxışlar adi güzgüdə olduğunun əksinə, ani, müvəqqəti deyil, əbədi qorunub saxlanılır” [1].

Məhəmməd Tağı Sidqi qəzeti “xoşbəyan dost” (məhbubi-xoşbəyan), “şirindilli ünsiyyətçi” (munisi-şirinzəban) adlandırır. O göstərir ki, qəzet gündüzlər şəfqətli, mərhəmətli yoldaş, istirahət zamanı sadiq həmdəm, uzun gecələrdə dünya xəbərləri ilə əyləndirən, təcrübəli, dünyagörmüş alimdir.

---

[1] Xudiyev N. Cavad Heyət möcüzəsi. Bakı: Azərnəşr, 2005, s. 150.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın əsas yekunları aşağıdakı kimi ümumiləşdirilmişdir:

XIX əsrin sonu Çar Rusiyası tərəfindən istismar şəraitində yaşayan Azərbaycan xalqının ədəbiyyat və mədəniyyətini yaşatmaq və inkişaf etdirmək kimi ağır prosesdə çalışan Məhəmməd Tağı Sidqi seçkin bir mövqedən çıxış edərək pedaqoji-ədəbi istiqamətdə yazdığı əsərləri ilə Azərbaycan uşaq ədəbiyyatına yeni istiqamət gətirmişdir.

Məhəmməd Tağı Sidqinin yaradıcılığındakı uşaq şeirləri araşdırılarkən Rəşid bəy Əfəndiyevin əsərləri ilə müqayisə və qarşılaşdırma aparılmış və nəticədə hər iki müəllifin bədii-pedaqoji uşaq poeziyasında eyni mövqedə dayanması faktik örnəklərlə əsaslandırılmış, ədibin əsərlərinin təsir dairəsi müəyyənləşdirilmişdir.

Araşdırmada əldə edilən nəticələrdən biri budur ki, Azərbaycanda pedaqoji istiqamətli ədəbiyyatın təşəkkülü və formalaşması Məhəmməd Tağı Sidqinin adı ilə bağlıdır.

Dissertasiyada əldə edilən nəticələr göstərir ki, "Naxçıvan yazıçıları" adlı müntəxəbat hazırlansa, Naxçıvan ədəbi mühitində yazılan əsərlər Azərbaycan ədəbiyyatının böyük bir hissəsini əhatə edər.

Məhəmməd Tağı Sidqi Azərbaycan hekayə janrına nağılvari xüsusiyyətlər gətirərək onu bədii baxımdan zənginləşdirmişdir.

Dissertasiyanın əsas məzmunu və müddəaları aşağıdakı məqalələrdə öz əksini tapmışdır:


**1.** Cəlil Məmmədquluzadə yaradıcılığında Şərq klassiklərinin əsərlərindən istifadə // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2000, № 7, s. 82-85

**2.** Məhəmməd Tağı Sidqi və ilk anadilli məktəb// Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2002, № 9, s. 126-128

3. Məhəmməd Tağı Sidqi və uşaq ədəbiyyatı/ (Naxçıvan Özəl Universitetinin 2003-cü ildə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekununa həsr edilmiş konfransın materialları). Bakı: 2004, s. 94-95

**4.** Məhəmməd Tağı Sidqinin hekayələri haqqında// Naxçıvan Dövlət Universitetnin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2011, № 2, s. 70-73

5. Məhəmməd Tağı Sidqi və ziyalı münasibətləri// Bakı Dövlət Universitetinin "Dil və ədəbiyyat" jurnalı (beynəlxalq elmi-nəzəri jurnal), Bakı: 2012, № 1 (81), s. 235-237

6. Məhəmməd Tağı Sidqinin bədii əsərlərində elm, məktəb və tərbiyə haqqında fikirlər// Elmi axtarışlar. AMEA, Folklor İnstitutu, 2012, № 1, s. 42-48
7. Naxçıvanda uşaq ədəbiyyatının inkişafında Məhəmməd Tağı Sidqinin rolu// AMEA Naxçıvan bölməsinin Xəbərləri, 8-ci c., Naxçıvan: 2012, № 3, s. 183-188
8. Məhəmməd Tağı Sidqi söz haqqında// Naxçıvan Dövlət Universite-tinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2012, № 2 (46), s. 57-60
9. История школы в Нахчыване и Мухаммед Таги Сидги// Фило-софский альманах. Современность: Мир мнений, Алматы, 2012, № 2, с. 204-208
10. XVI-XVII yüzilliklərdə Naxçıvanda ədəbi-mədəni, elmi mühit// Axtarışlar (folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix). Elmi toplu, I (7). Naxçıvan: 2013 (1), s. 52-55
11. XIX yüzillikdə Azərbaycanda ədəbi-pedaqoji mühit və Məhəmməd Tağı Sidqi// Axtarışlar (folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix). Elmi toplu, II (8). Naxçıvan: 2013 (2), s. 62-65

Nurlana Sabir gizi Aliyeva

Mahammad Taghi Sidgi and children's literature

SUMMARY

Dissertation consists of the introduction part, three chapters (twelve semi-chapters), conclusion and the list of the used literature.

In the introduction part of the dissertation the topicality of the theme is grounded. It gives general information about the aims and objectives, scientific novelty, theoretical and practical importance, object and subject of the theme, as well as its methods, approbation and structure.

The first chapter entitled "Mahammad Taghi Sidgi's life, environment and creativity" consists of four semi-chapters. In this chapter the light is thrown upon the literary environment in the period till Mahammad Taghi Sidgi and in his own period in Nakhchivan. This chapter also deals with some problematic points of the writer's life and his contemporaries.

The second chapter of the dissertation entitled "Ideological and artistic features of Mahammad Taghi Sidgi's works for children" also consists of four semi-chapters. This chapter studies Mahammad Taghi Sidgi's creativity related to children's literature. It scientifically analyzes his poems, stories and scientific and pedagogical works on this topic and establishes the ideological and artistic features of these works. His craftsmanship characteristics are also drawn into investigation.

The third chapter entitled "Mahammad Taghi Sidgi's role in the development of the Azerbaijan children's literature" also includes four semi-chapters. This chapter studies the publication of Mahammad Taghi Sidgi's works, the influence circle of his works for children, as well as his attitude to press and the Azerbaijani intellectuals. In this chapter Mahammad Taghi Sidgi's works are compared with the samples taken from Rashidbay Efendiyev's creativity, another prominent representative of the Azerbaijan children's literature on the basis of comparative method. The "Conclusion" summarizes the thesis findings of the researher on the topic. At the end of the dissertation is given the list of the used literature.

Нурлана Сабир кызы Алиева

Мамед Таги Сидги и детская литература

## Р Е З Ю М Е

Диссертация состоит из введения, трёх глав, двенадцати частей и списка испольъзованной литературы.

В введении раскрывается актуалъностъ темы, её цель, научное новаторство, теоретическое и практическое значения, её объектность и предметность, даётся сведения об апробации и строении темы.

Первая глава названная «Жизнъ, условия, творчество Мамед Таги Сидги» состоит из четырёх частей. В этой части рассказывается о литературной жизни Мамед Таги Сидги в Нахчыване и  о жизни его современников. В этой главе проливается свет на некоторые спорные моменты жизни Мамед Таги Сидги.

Вторая глава состоит из  четырёх частей и называется «Идейно-художественные особенности детских произведений Мамед Таги Сидги». В этой главе творчество Мамед Таги Сидги, связанное с детской литературой, подвергается исследованию, научно изучаются, написанные им стихи, рассказы, научные и педогогические произведения и говорится об их идейно-художественных особенностях. В этой главе также говорится об творческих качествах Мамед Таги Сидги.

Третья глава тоже состоит из четырёх частей. Главей под называнием «Роль М.Т.Сидги в  развитии Азербайджанской детской литературы»  исследуется вопросы, связанные с изданием произведений писателя, выявления сферы вмиения детской литературы, отношения Сидги к издателъству в целом к азербайджанской интеллигенции в частности. В этой же главе на основе метода противопоставления проводится сравнение примеров из творчества Сидги и одного из самых видны представителей Азербайджанской детской литературы Рашид бека Афендиева.

В конце диссертации обосновываются конечные результаты и выдвинутые предложения, связанные с данной темой. Диссертация заканчивается списком использованной литературы.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**НУРЛАНА САБИР КЫЗЫ АЛИЕВА**

# Мамед Таги Сидги и детская литература

5716.01- Азербайджанская литература

## АВТОРЕФЕРАТ

Диссертации на соискание ученой степени доктора философии по филологии

**Нахчыван -2013**

Çapa imzalanmışdır: 10.VII.2013
Formatı: 60x90, 16/1,həcmi: 1.3 ç/v.
Tiraj: 100, sifariş № 44

NDU-nun "Qeyrət" nəşriyyatının mətbəəsində çap olunmuşdur.